# İslam dininin şəxsiyyətin formalaşmasına təsiri

**Aydan İsmayılova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** aydan_ismailova95@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. P.M. Həsənova,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** İslam, din, tərbiyə, şəxsiyyət, insan, əxlaq, dünya, birlik
**Ключевые слова:** Ислам, религия, образование, личность, человек, мораль, мир, единство
**Key words:** Islam, religion, education, personality, human, morality, world, unity

Din Allah tərəfindən insanları dünya və axirət səadətinə qovuşduran ilahi inanc sistemidir. Din dedikdə mənbəyi yaradana dayanan inanc sistemi nəzərdə tutulur. Dinləri səmavi və qeyri-səmavi olmaqla iki qrupa ayırırlar. Səmavi dinlər, adından bəlli olduğu kimi, Allah tərəfindən mələklər vasitəsilə peyğəmbərlərə göndərilən vəhy mənbəyidir. Bunlara haqq dinlər də deyilir. Bir sözlə, xristianlıq, yəhudilik və İslam dini haqq dinləridir. İslam dininə görə ilk insan Həzrəti Adəm eyni zamanda ilk peyğəmbərdir. Hz. Adəmdən Hz. İsaya qədər bütün peyğəmbərlər insanlara Allahın birliyini və ona necə ibadət ediləcəyini təbliğ etmişlər. Mənbələrə görə, səmavi dinlərdən yəhudilik Hz. Musa, xristianlıq isə Hz. İsa tərəfindən insanlara çatdırılmışdır.

Hazırda dünya əhalisinin təqribən 1,2 milyardı islam dininə etiqad edir, islam dini səmavi dinlərin sonuncusu hesab olunur və Allah tərəfindən göndərilən peyğəmbərləri və kitabları təsdiq edir, islam sülh, barışıq, bərabərlik və yardımlaşma dinidir.

İslamın birinci və ən başlıca mənbəyi Qurandır. Bu dinin əsasları öz təcəssümünü Quranda tapmışdır. Quranın əqidə, ibadətlər, əxlaq və şəriət məsələləri ilə bağlı hökmləri müsəlmanların din və dünya işlərini tənzim edir.

Qurani-Kərim milyard yarımdan çox insanın etiqad etdiyi islam dininin Müqəddəs Kitabı, ərəb ədəbi dilinin ən möhtəşəm abidəsi və səmavi kitabların ən sonuncusu və mükəmməlidir. İlahi gözəlliyə malik olan bu əsər Ulu Tanrının öz möcüzəsi kimi milyonlarla insanların qəlbinə hakim kəsilmiş, beyninə nüfuz etmişdir. Onun ilahi gözəlliyini təsdiq etməyə təkcə bu kifayətdir ki, ərəb dilini bilməyənlər belə onu dinləməkdən doymur, yorulmurlar.

Əl-Quran (bərkdən, əzbər oxuma; müqəddəs mətnin oxusu, nəsihət), Əl-Quran Əl-Kərim - 610-632-ci illər arasında Məhəmməd (s) tərəfindən əsasən Məkkə və Mədinədə Allahdan nazil olan, "peyğəmbər vəhyləri"nin sonradan kitab halında yaranmış şəklidir.

Quran və digər müqəddəs kitablar Allah tərəfindən nazil edildiyi, yəni göydən yerə, peyğəmbərlərə endirildiyi üçün bu hadisəyə nazil olma deyilir. Vəhy isə Allahın istər müqəddəs kitablarını, istərsə də digər əmr və qadağanlarını Öz yaratdıqlarına, xüsusilə peyğəmbərlərinə nazil etmə, göndərmə qaydasıdır, açıqlamasıdır. Vəhyin əsas məqsədi insanı hidayət etmək, şəxsiyyəti kamilliyə, mənəvi tərəqqiyə doğru aparan yolu insana göstərməkdir.

Surə Quran ayələrindən düzələn fəsildir, bölümdür. Quran 114 surədən ibarətdir. Bu surələrdən ən uzunu 286 ayədən ibarət "əl-Bəqərə" surəsi, ən qısaları isə 3 ayədən ibarət "əl-Kəusər', "ən- Nəsr" və "əl-Əsr" surələridir.

Qurani-Kərim "əl-Fatihə'" surəsi ilə başlanır və "ən-Nas" surəsilə bitir. 90 surə Məkkədə,

24 surə Mədinədə nazil olmuşdur.

“Quran”da əxlaq ailə kəbin ər-arvad valideyn-övlad övlad-valideyn munasibetleri usaqların ailədə tərbiyəsi məsələləri “əl-Bəqərə”, “Ali-İmran”, “ən-Nisa”, “əl-İsra”, “əl-Ənkəbud”, “Loğman”, “əl-Əhraf” və digər surələrində geniş işıqlandırılır. Bu surələrdə qadınlar nikah boşanmanın şərtləri ovlada qayğı onu bəsləyib ərsəyə çatdırmaq qocalmış valideynlərə qayğı hörmət ətraflı izah edilir ailə qurarkən hər kişi və qadının hifz səhiyyə qaydalarına təmizliyə riayət etmələri tövsiyə edilir. Təmizlik insanı imana dəvət edir.

İnsanlar alicənab və yumşaq xasiyyətli olduqları zaman hər yeri gözəlləşdirərlər. Danışarkən yumşaq bir üslubda danışmaq, qarşındakına təbəssüm etmək, qarşılaşdığın zaman gözəl söz söyləmək ütün bunlar, xöşbəxt insanların örtündükləri qiymətli paltarlardır və müsəlmanın səciyyəvi xüsusiyyətləridir.

İnsanlar daima bir-birinə təmənnasız yaxşılıqlar etməli və düzgün yolda olmağa çalışmalıdır. Yaxşılıqla pislik eyni ola bilməz! (Ey mömin kimsə!) Sən (pisliyi) yaxşılıqla dəf et! (Qəzəbə səbirlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlanmaqla cavab ver!) Belə olduqda aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən!..» (Fussilət, 34)

Uca Allah belə buyurur: O müttəqilər ki, bolluqda da, qıtlıqda da (mallarını yoxsullara) xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər.. (Ali-İmran, 134)

Quran qadının cəmiyyətdəki yerini və hörmətini yüksəklərə qaldırır onun kişi ilə birlikdə ailədə xüsusi mövqe sahibi olduğunu uşaqların tərbiyəsində ata ilə yanaşı məsuliyyət daşıdığını zəruri hesab edir. Qadınların ən yaxşısı nəcib mömin uşaqlarına mehriban ərinin mal və sərvətinə ürək yandırandır. Mömin qadınlar kişilərin ən qiymətli xəzinəsi sayılır. İffət isə qadınların zınətdir. Qadın hüququ müqəddəsdir. Bu hüququ onların ğözlərinə qaytarmaq lazimdir. Üç qiz və ya bacısı olan və ərsəyə catana kimi onlarla mehribanlıq edən şəxsin payını Allah behiştdə verir. İnsanların ən ləyaqətlisi əxlaqi gözəl olanlar və ailə üzvlərinə böyük ehtiramla yanaşanlardır.

“Quran”da deyilir ki hər bir ağacın öz meyvəsi olduğu kimi qəlbin də meyvəsi uşaqdır övladdır. Qəlbin meyvəsi evin bərəkəti olan övlad dünyaya göz açan kimi onun qayğısına qalmaq hər bir ata və ananın borcudur. Quranın “Əl-Bəqərə” surəsinin 233-cü ayəsində deyilir ki analar uşaqlarını iki il əmizdirməlidir. Ana cəfakeş qayğıkeşdir. Ana övladını 9 ay bətnində gəzdirir 24 ay ona süd verir onun hər bir əzabına dözür. Ona görə də cənnət belə anaların ayaqları altındadır.

1. Borc verdiyi adamı bərkə çəkməyənin işini ALLAH bu dünyada da yüngülləşdirir, axirət dünyasında da.
2. Xeyirliləriniz borcunu vaxtında və düzgün ödəyəndir.
3. Kim başqalarından heç bir şey istəməyəcəyinə söz verirsə, mən də onun cənnətə gedəcəyinə söz verirəm.
4. Kim bir xeyirli iş üçün bələdçilik edirsə, o xeyirli işin savabı qədər savaba nail olur.
5. Azacıq olsa belə özünü sayan etdirmək belə, qüsurdur.
6. Bir işi ki, görürsən və istəmirsən ki, onu başqaları görsün, onu təklikdə görmə
7. Səxavətli bisavad, Allaha ibadət edən, lakin xəsis olan adamdan yaxşıdır.
8. Udulan şeylər içərisində Allah dərgahında ən savablısı qula hirslənən zaman hirsi udmaqdır.
9. Allaha, doğru sözdən daha qiymətli bir sədəqə yoxdur.
10. Həqiqət acı olsa belə, danış.
11. Xeyirli iş bələdçilik edən, xeyir iş görmüş kimidir.

12. Xidmətçi ilə süfrə başında əyləşib yemək yemək təvazökarlıqdan irəli gəlir.

13. Halal aydındır ki, halaldır; haram aydındır ki, haramdır; o şeydən ki, şübhələnirsənsə, onu etmə, şübhələnmədiyini et.

14. Halal halaldır, haram haram. Bu ikisindən başqa elə işlər var ki, adamların çoxu, onların harammı, yoxsa halal olduğundan bixəbərdir. Kim şübhələndiyi işlərdən çəkinirsə, dinini, namusunu qorumuş olur; şübhəli işlərə yol verənlər, harama yol vermiş olurlar hardasa qoruğun, əkinin qırağında sürüsünü otaran, sürüsünün qoruğa, tarlaya girməsindən şübhələnən çoban kimi. Hər məlaikənin bir qoruğu tarlası vardır. Allahın yer üzərindəki qoruğu-tarlası da bilin ki, Onun haram buyurduğu şeylərdir. Bir də bilin ki, bədəndə bir ət parçası var, o düz, təmiz oldumu, bütün bədən təmiz olur, düzəlir, o, təmiz olmursa, bütün bədən də pozulur, bilin ki, o qəlbdir, ürəkdir.

15. Bilin, agah olun: səxavətlilər cənnətdədir mən də buna zaminəm.

Qeyd olunan nəsihətlərə əməl edib onlardan nəticə çıxarıb düzgün yolda getmək lazımdır. Ya Uca Allahın buyurduqlarına əməl etmək biz insanların borcudur. Övladlarımıza dini sevdirməli onlara bizi yaradan Allaha olan sevgini aşılamaq valideynlərin edəcəyi ən birinci əməllərdən olmalıdır. Halalı haramı öyrətməli böyüklərə qarşı diqqətli olmağa onlara hörmətlə yanaşmağı öyrətməliyik. Dostları ilə münasibətdə sadiqliyi dürüstlüyü onlara izah etməliyik. Ədalətlə yanaşı uşaqlara həqiqəti öyrətməyi Quran vacib hesab edirdi. Həqiqəti demək lazımdır cünki qurtuluş ondadır. Uşaqları yalan danışmaqdan çəkindirmək lazımdır. Yalan həlak olmaqdır. Onların həyalı böyüməsinə tamahkarlığa həsədə nifrət bəsləməsinə çalışmaq lazımdır. Həya bəzəkdir. Tamahkarlıq və acgözlüyün yoxsulluq əlaməti olduğunu bildirmək lazımdır. Onlara İslam dininin beş şərtini öyrətmək lazımdır: 1. Kəlmeyi-şəhadət; 2. Namaz; 3. Oruc; 4. Həcc; 5. Zəkat

Gündəlik zikrləri əzbərlətmək lazımdır I günün zikri-Ya Qaziyəl Hacat, II günün zikri-Ya Ərhəmər Rahimin, III günün zikri-Ya Həyyu Ya Qəyyum, IV günün zikri-La İlahə İllallahul Məlikul Həqqul Mubin, V günün zikri- Allahumməsəlli əla Muhammadin və ali Muhammad, VI günün zikri-Ya Rəbbəl Aləmin, VII günün zikri-Ya Zəl Cəlali Vəl İkram. Hər günün zikri 100 dəfə deyilir.

**Məqalənin aktuallığı.** Dini uşaqlara düzgün aşılamaq və onlarda yüksək mənəvi keyfiyyətlər tərbiyə etmək onları cəmiyyətimizin ləyaqətli üzvləri kimi yetişmələrini təmin etməkdir. Bu baxımdan məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə Qurani-Kərimin insanda müsbət mənəvi keyfiyyətlərin formalaşmasında xüsusi rolu vurğulanır və bütün bunlar konkret nümunələrlə əsaslandırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** İslam dəyərlərinin mahiyyətinin diqqətlə öyrənilməsi və gələcək nəsillərə çatdırılması nöqteyi-nəzərdən məqalə müəllim və tərbiyəçilər üçün faydalı ola bilər.

## Ədəbiyyat

1. S. Quliyev. Ailə pedaqogikasının ümumi problemləri. Prezident Kitabxanası.

2. Ş. Baxışova. Məktəbəqədər müəssisələr və ibtidai siniflərdə İslam dəyərlərindən istifadə üzrə işin təşkili yolları. Bakı, 2011.

**А. Исмаилова**

## Влияние Исламской религии к формировании идентичности


## Резюме

В статье рассматривается влияние исламской религии на формирование личности. Важно правильно прививать этих религиозных детей и воспитывать их с высокими моральными качествами. Это также подчеркивает важность взросления как достойных членов нашего общества.


**A. Ismayılova**

## The influence of Islam on the formation of identity


## Summary

The article deals with the impact of Islamic religion on the formation of personality. It is important to properly instill these religious children and to educate them with high moral qualities. It also emphasizes the importance of growing up as dignified members of our society.


**Redaksiyaya daxil olub:** 08.05.2019